MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 5, № 1, 2025*

UOT 94(479.24)

# BORÇALI QƏZASININ TƏŞKİLİ, ƏRAZİSİ VƏ İNZİBATİ QURULUŞU

**Gülər İlham qızı Əjdərzadə**
Mingəçevir Dövlət Universiteti
Azərbaycan Milli Elmlər Akademiyasının dissertantı
gular.ajdarzada@mdu.edu.az
**https://doi.org/10.30546/SJSD.2025.5.1.067**

***Xülasə***: *Məqalədə XIX əsrdə Borçalı qəzasının təşkili, onun ərazisi və inzibati-idarəetmə sistemi araşdırılmışdır. Borçalı bölgəsinin Rusiya imperiyasının işğalından sonra üzləşdiyi inzibati dəyişikliklər, əhalinin etnik tərkibi, sosial-iqtisadi vəziyyəti və idarəetmə formaları təhlil edilmişdir. Məqalədə həmçinin Borçalı qəzasının ərazisinin müxtəlif dövrlərdəki dəyişiklikləri və bu dəyişikliklərin demoqrafik nəticələri də dəyərləndirilmişdir. Araşdırma göstərir ki, Borçalı bölgəsi əsasən azərbaycanlıların kompakt şəkildə yaşadığı mühüm bir tarixi-coğrafi ərazi olmuşdur. Məqalədə bölgənin etnik müxtəlifliyi, kənd təsərrüfatının strukturu və mülkiyyət münasibətləri də təhlil edilmişdir. Bu baxımdan tədqiqat yalnız tarix elmi üçün deyil, eyni zamanda etnoqrafiya və siyasi coğrafiya üçün də əhəmiyyətlidir.*
***Açar sözlər:*** *Borçalı qəzası, Tiflis quberniyası, inzibati islahatlar, azərbaycanlılar, Rusiya imperiyası, XIX əsr, etno-demoqrafiya, idarəetmə formaları*

## Giriş

Cənubi Qafqazın siyasi və inzibati mənzərəsi XIX əsrdə Rusiya imperiyasının bu əraziləri işğal etməsindən sonra əsaslı şəkildə dəyişdi. Bu işğal nəticəsində Qafqazın müxtəlif bölgələrində, o cümlədən Borçalıda inzibati və sosial-iqtisadi sistem tamamilə yenidən quruldu. Borçalı bölgəsi uzun əsrlər boyu Azərbaycan türklərinin yaşadığı mühüm tarixi-coğrafi ərazi olub. Bu torpaqlar qədim türk tayfalarının məskunlaşdığı ərazi kimi tanınmış, Səlcuqilər, Qaraqoyunlular, Səfəvilər və digər türkdilli dövlətlər dövründə də mühüm strateji əhəmiyyət daşıyıb. Rusiya imperiyasının buradakı məqsədi yalnız ərazi işğalı deyil, həm də regionda sosial və etnik düzəni öz maraqları çərçivəsində dəyişmək idi. Məqalənin məqsədi XIX əsrdə Rusiya imperiyası tərəfindən yaradılan Borçalı qəzasının inzibati təşkili, ərazisi və burada yaşayan azərbaycanlıların vəziyyətini hərtərəfli şəkildə araşdırmaqdır.

## Borçalı qəzasının inzibati təşkili

Rusiya imperatoru I Pavelin Şərqi Gürcüstanı – Kartli-Kaxetiya çarlığını Rusiya imperiyasına birləşdirilməsini nəzərdə tutan 18 yanvar 1801-ci il tarixli manifestindən sonra burada yeni ərazi vahidlərinin yaradılmasına başlanıldı. Senatın 6 mart 1801-ci il tarixli fərmanına əsasən tərkibinə Somxetiya (Trialeti və Borçalı), Qazax Şəmşəddil, Pəmbək və Şulaverin daxil olduğu Kartli və Kaxetiyadan ibarət yeni ərazi-inzibati vahidi – Gürcüstan quberniyası təşkil edildi. Bu aktla əhalisinin əksəriyyəti Azərbaycan türklərindən ibarət olan böyük bir ərazi rus hakim dairələri tərəfindən yaradılmış quberniyanın tərkibinə daxil edildi. 1801-ci il 12 aprel tarixli sənədə əsasən yeni yaradılmış Gürcüstan quberniyasının tərkibinə 5 qəza – Qori, Lori, Duşet, Telavi və Sığnax qəzaları yaradıldı.[10]

I Pavelin öldürülməsindən sonra inzibati-ərazi vahidlərinin yaradılması işi müvəqqəti olaraq dayansa da, 1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının ləğvindən sonra rus qoşunları Şəmşəddil, Qazax, Borçalı, Car-Balakən, İlisu sultanlığı, Gəncə xanlığı kimi xüsusilə azərbaycanlıların yaşadıqları yeni əraziləri işğal etməyə başladı. Bu işğal aktlarından sonra rus hakim

[10] Котляр И.Ф. Половцы в Грузии и Владимир Мономах // Из истории украинско-грузинских связей. Ч. 1. Тбилиси: Мецниереба, 1968, с. 3, 8, 23.

dairələri tərəfindən "tatar distansiyaları" adlandılan Borçalı, Qazax, Şəmşəddil, Pəmbək-Şuragel distansiyaları və Yelizavetpol dairəsi yaradıldı və Gürcüstan quberniyasının tərkibinə daxil edildi.

Cənubi Qafqazda məhkəmə, o cümlədən inzibati islahatları nəzərdə tutan "Cənubi Qafqazı idarə etmək üçün təsisatlar" adlanan imperator I Nikolay tərəfindən təsdiqlənmiş 1840-cı il 10 aprel tarixli qanuna əsasən Gürcü-İmeretiya quberniyası adlı yeni inzibati-ərazi vahidi təşkil edildi. Yeni yaradılmış quberniya Tiflis, Qori, Telavi, Balakən, Kutaisi, Yelizavetpol, Aleksandropol, İrəvan, Naxçıvan, Axalkələk və Quriya qəzalarından ibarət idi. Bütün bu qəzalar öz növbəsində 44 sahəyə bölünürdü.[11]

Çarizmin 1844-cü ildə Qafqazda canişinliyini təsis etməsi[12] diyarın ərazi inzibati quruluşunda yeni dəyişiklərlə müşayiət olundu. 1846-cı ildə həyata keçirilmiş yeni inzibati islahata əsasən Tiflis quberniyası təşkil edildi. Regionda milli-etnik əlamətlər əsasında formalaşmış hüdudları nəzərə almayan çarizm bir sıra Azərbaycan torpaqlarını Tiflis quberniyasının ərazisinə daxil etmişdi. Tiflis quberniyasının yaradılması ilə əhali üzərində bütün hakimiyyət o cümlədən mülki işlər də hərbi qubernatorun əlində cəmləndi.

XIX əsrin 60-cı illərində müstəmləkə rejiminin yaratdığı şəraitdən narazı olan Cənubi Qafqazın azərbaycanlı əhalisinin narazılığı, habelə çarizmin 1864-cü ildə bütün Qafqazı fəth etməsini başa çatdırması kimi amillər hakim dairələri Cənubi Qafqazda bəzi dəyişiklər həyata keçirməyə vadar etdi. Bu dəyişiklərə əsasən 1867-ci il dekabrın 9-da çar hakim dairələri Tiflis quberniyasında yeni inzibati bölgü həyata keçirdilər. 1868-ci ildə Yelizavetpol quberniyası yaradıldı və eyniadlı qəza yeni yaranmış bu quberniyanın tərkibinə daxil edildi.[13] Həyata keçirilmiş bu inzibati islahatlardan sonra Tiflis quberniyası Tiflis, Qori, Telavi, Sığnax, Duşet Axalkələk, və Tioneti qəzalarından ibarət oldu.[14]

XIX əsrin 70-ci illərinin sonlarında Tiflis quberniyası ərazisində aparılmış inzibati islahatlar nəticəsində yeni inzibati vahidlər meydana gəldi. 1877-ci ilin martın 25-də Tiflis qəzasının bir hissəsini təşkil edən Lori və Trialeti pristavlıqları və keçmiş Borçalı sahəsinin ərazisi Tiflis quberniyasından ayrıldı. Bu ərazilər hesabına Şulaver müvəqqəti inzibati şöbəsi adlı xüsusi inzibati-ərazi vahidi təşkil edildi.[15]

1880-ci il mayın 6-da aparılmış yeni inzibati dəyişikliyə əsasən Şulaver müvəqqəti inzibati şöbəsi yenidən təşkil edilərək Tiflis quberniyasının tərkibində Borçalı qəzası yaradıldı.[16] Həmin qərara əsasən Borçalı qəzasının tərkibinə daxil olan Borçalı sahəsindən Borçalı pristavlığı təşkil edildi.

Borçalı qəzasının təşkil edilməsinin mühüm əhəmiyyəti onun azərbaycanlıların tarixən kompakt yaşadığı əraziləri əhatə etməsindən ibarət idi. Belə ki, qəza əhalisinin 89%-dən çoxunu azərbaycanlılar təşkil edirdi. Qəza əhalisinin əsas hissəsi yüksək dağlıq ərazilərdə, həmçinin düzən hissədə yaşayan azərbaycanlılardan ibarət idi. Bununla yanaşı, Borçalı qəzası təşkil edilərkən Sığnax bölgəsinin Qaraçöp sahəsi, habelə Qarayazının qəzanın tərkibinə daxil edilməməsi[17] tarixi Borçalının ərazisinin xeyli kiçilməsinə səbəb oldu.

**Ərazi və sərhədlər**

Sahəsi 8000 verst təşkil edən Borçalı distansiyası şimalda Tiflis və Qori qəzaları, şərqdə Sığnax qəzası və Qazax distansiyası, cənubda Pəmbək-Şuragel distansiyaları, qərbdə Axalsıx və Axalkələk paşalıqları ilə qonşu idi. Ərazisinin ümumi sahəsi 6870 km² olmuşdur. Bu əraziyə indiki

---

[11] Военно-статистическое обозрение Российской империи. Т. 16 (Кавказский край), ч. 5. – СПб.: Тип. Департамента Генерального Штаба, 1858, с. 219.

[12] Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Ч. II. СПб.: типография департамента внешней торговли, 1836, с. 19-20.

[13] Архипова Е.В. Азербайджано-грузинская граница: исторические факторы появления современных территориальных споров // Вестн. Волгогр. гос. ун-та. Сер. 4, Ист. 2012. № 2 (22), с. 79ş

[14] Учреждение управления Кавказского и Закавказского края. СПб.: 1876, с. 2.

[15] Abbasova M. Borçalı torpaqlarının tarixi. Bakı: Mütərcim, 2016, s. 139.

[16] ARDTA: f. 291, siy. 1, iş 694.

[17] Məmmədov R., Məmmədli V. Borçalı tarixi demoqrafiya güzgüsündə (tarixi-demoqrafik oçerk). Bakı: "Əbilov, Zeynalov və oğulları", 2001, s. 21.

Gürcüstanın Kvemo Kartli bölgəsi, eləcə də Ermənistanın şimalındakı bəzi bölgələr daxil idi. Qəza ərazisi təbii sərvətlərlə zəngin olmaqla yanaşı, həm də strateji əhəmiyyətə malik idi. Yollar, keçidlər və çay hövzələri onun iqtisadi və hərbi baxımdan önəmini artırırdı.

Qeyd etmək vacibdir ki, Borçalı ərazisi müasir Gürcüstan Respublikasının cənub-şərq rayonlarını – Dmanisi (Başkeçid), Bolnisi (Bolus-Kəpənəkçi), Marneuli (Sarvan), Qardabani (Qaratəpə) rayonlarını tam, qismən Barmaqsız ərazilərini, Rustavi şəhərini (Bostanşəhər), həmçinin indiki Ermənistanın Spitak (Hamamlı), Amasiya (Ağbaba), Stepanavan (Cəlaloğlu) və Kalinin (Taşir) rayonlarını əhatə edirdi.

Borçalı qəzasının sahəsi ilə bağlı tarixşünaslıqda iki müxtəlif rəqəmə rast gəlmək mümkündür. Statistik məlumatları əsas götürən M.Abbasova göstərir ki, Borçalı qəzasının 5417,2 kv. verst (6164, 6 km$^2$) ərazini əhatə etmişdir. Bu məlumat hərbi-topoqrafik şöbənin, habelə “Qafqaz təqvimi” toplusunun məlumatı[18] ilə üst-üstə düşür. Bununla yanaşı, Brokhauz və Yevfron ensiklopedik lüğətində qəzanın ərazisinin 5938,5 kv. verst təşkil etdiyi də qeyd edilir.[19] Borçalı bölgəsinin tarixi ilə bağlı vətən tarixşünaslığında aparılmış bəzi tədqiqatlarda isə bu tarixi bölgənin daha geniş ərazilərə sahib olması fikri vurğulanır. Belə tədiqatların birində bölgənin ərazisinin rus işğalı ərəfəsində təqribən 10 min km$^2$, 1835-ci ildə 6828 km$^2$, 1880-ci ildə 6164, 6 km$^2$, 1897-ci ildə 7005,6 km$^2$, 1902-ci ildə 6567 km$^2$, 1905-ci ildə 6879 km$^2$, 1915-ci ildə 6409 km$^2$ olduğu göstərilir.[20] “Qafqaz təqvimi”nin 1917-ci il üçün olan son məlumatına görə, Borçalı qəzasının ərazisi 6036,96 verst$^2$ (6870,19 km$^2$) olaraq göstərilir.[21] Borçalı qəzasının dövlətlərarası mübahisə predmeti olduğu 1918-1921-ci illərdə qəzasının ərazisi və onun sahəsi ilə bağlı istinad mənbəyi kimi “Qafqaz təqvimi”nin 1917-ci il üçün olan məlumatı (6036,96 verst$^2$ və ya 6870,19 km$^2$) əsas götürülürdü.

Tiflisdən cənub tərəfdə yerləşən Borçalı qəzasının tərkibinə Borçalı düzənliyi, habelə Lori və Trialetinin dağlıq əraziləri daxil edilmişdi.[22] Qəzanın sərhədləri haqqında müfəssəl məlumat verən A.Eritsov onun Yelizavetpol quberniyasının Qazax, İrəvan quberniyasının Aleksandropol, Tiflis quberniyasının Axalkələk, Qori və Tiflis qəzaları ilə həmsərhəd olduğunu qeyd edir. Bundan başqa, müəllif göstərir ki, Xram çayının vadiyə çıxışından Kür çayı sahilinə qədər olan kiçik bir sahə istisna olmaqla Borçalı qəzası hər yerdə ya yüksək sıra dağlar, ya da Xram və Kür çaylarının məcraları ilə əhatə olunmuşdur. Fikrinə davam edən Eritsov təxmini hesablamalara əsasən qeyd edir ki, qəzanın təbii sərhədlərinin 365 verstini dağlar, 85 verstini çaylar, 30 verstə qədərini isə Xram və Kür çayları arasında yerləşən təpəli düzənlik təşkil edir.[23]

A.Eritsovun təsvirinə görə, Borçalı qəzasının şimal nöqtəsini Ərcivan sıra dağlarında yerləşən Cəm-Cəm dağı təşkil edir, buradan sərhəd Kömədağdan keçərək mis mədəni zavoduna istiqamətlənərək, Debed çayını, Kərhəng, Bozabdal dağlarını aşır, Çubuxlu və Ağlağan dağları boyunca uzanırdı. Ağlağan dağının zirvəsindən şimala və şimal-qərb istiqamətinə dönən sərhəd Məkrih və Qaraağac dağlarına doğru uzanırdı.[24]

Borçalı qəzası öz ərazisinə görə Tiflis quberniyasının digər qəzaları içərisində xüsusilə fərqlənirdi. Ş.Məmmədlinin gürcü ictimai xadimi və yazıçısı İ.Çavçavadzenin 1890-cı ildə “İveriya” qəzetində nəşr edilmiş “Borçalı qəzası” adlı məqaləyə istinadən verdiyi məlumatda Borçalı qəzasının ərazisi barədə qeyd edilir: “Böyüklüyünə görə Borçalı qəzası bütün Tiflis quber-

[18] Кавказский календарь на 1885 год. Тифлис: 1884, с. 208, с. 309.
[19] Энциклопедический словарь Брокгауза и Ефрона: Битбург - Босха. В 86 томах. Том IV. Санкт-Петербург. Семеновская Типолитография (И.А. Ефрона), 1891, с. 451.
[20] Məmmədov R. Məmmədli V. Borçalı tarixi demoqrafiya güzgüsündə (tarixi-demoqrafik oçerk), s. 28.
[21] Кавказский календарь на 1917 год. Тифлис, 1916, Отдель статистический, с. 210.
[22] Эрицов А.Д. Экономический быт государственных крестьян Борчалинского уезда, Тифлисской губернии // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. 7. Тифлис: Тип. А. А. Михельсона, 1887, с. 367.
[23] Эрицов А.Д. Экономический быт государственных крестьян Борчалинского уезда, с. 368.
[24] Эрицов А.Д. Экономический быт государственных крестьян Борчалинского уезда, с. 369.

niyasının qəzaları içində, demək olar ki, ikinci yeri tutur".[25] Qəzanın ərazi və əhali parametrləri üzrə Tiflis quberniyasının digər qəzaları ilə müqayisəsini verən A.Eritsov göstərirdi: "Ərazisinin sahəsinə görə Borçalı qəzası bir qədər Qori və Sığnax qəzalarından kiçikdir, lakin ayrı-ayrılıqda Axalsıx, Axalkələk və Telavi qəzalarından iki dəfə böyükdür, Tiflis, Tionet və Duşet qəzalarından genişdir. Bu baxımdan Kutais və İrəvan quberniyalarının heç bir qəzası, həmçinin Yelizavetpol və Bakı quberniyalarının bir çox qəzaları onunla müqayisə edilə bilməz".[26]

Məlumatlardan göründüyü kimi, Borçalı qəzası öz ərazisinin böyüklüyü və əhalisinin sayı baxımından nəinki Tiflis, habelə digər Cənubi Qafqaz quberniyaları arasında seçilirdi. Həmçinin Qaraçöp və Qarayazının qəzaya daxil edilməməsini nəzərə alsaq, tarixi Borçalı ərazilərinin həqiqi sahəsini təsəvvür etmək o qədər də çətinlik törətmir.

**İdarəetmə sistemi və sosial münasibətlər**

Borçalı bölgəsinin inzibati idarəetmə sistemi ərazi gürcü çarlarının hakimiyyəti altına keçdikdən və Rusiya tərəfindən işğal edildikdən sonra müəyyən dəyişikliklərə məruz qalmış və bir sıra spesifik xüsusiyyətlər kəsb etmişdir. Bu hal, hər şeydən əvvəl bölgənin əhalisinin mütləq əksəriyyətinin türk-müsəlmanlardan ibarət olması kimi mühüm amildən qaynaqlanırdı. Bölgə Nadir şah tərəfindən Kartli-Kaxetiya çarlığının hakimiyyəti altına verildikdən sonra müsəlmanlara etibarsız element kimi yanaşan gürcü çarları azərbaycanlı bəy və ağaların bu sahədə hüquqlarını xeyli məhdudlaşdırmışdılar. V.İvanenkonun qeyd etdiyi kimi, tatarlardan toplanan vergiləri yığmaq və onlarla gürcü çarları arasında vasitəçilik etmək üçün hər distansiyada gürcü çarı tərəfindən seçilmiş mourav var idi.[27]

Şərqi Gürcüstanla birlikdə Borçalı torpaqları da Rusiya tərəfindən işğal edildikdən sonra bölgənin idarəetmə sistemində əsaslı dəyişikliklər baş verdi. Bu dəyişikliklərə əsasən sultan hakimiyyəti məhdudlaşdırıldı, yerli feodallar – ağalar isə Rusiyanın bölgədəki əsas məmuru hesab edilən baş pristava tabe edildi. Baş pristav Borçalı distansiyasını sərəncamında olan yerli əhali arasından seçilmiş yasavullar vasitəsilə idarə edirdi.[28] Çar hakimiyyətinin tətbiq etdiyi mühüm dəyişikliklərdən biri, heç şübhəsiz, yerli hakimlərin əhalini kobud şəkildə istismar etməsinin qarşısını almaq məqsədi ilə tətbiq etdiyi qaydalar hesab edilə bilər. Bu qaydalara əsasən, kəndliyə çəkinmədən öz ağasından baş pristava şikayət etmək hüququnun verilməsi idi. Bu addım, heç şübhəsiz əvvəlki dövrlərdə kəndlilər üzərində qeyri-məhdud hakimiyyətə sahib olan yerli feodalların özbaşınalığının qarşısının alınması baxımından mühüm əhəmiyyətə malik idi. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, bəy və ağanın tabeliyində olan adamlara, o cümlədən kəndlilərə qarşı qəddar rəftarı müqabilində nəzərdə tutulan cəza onun məzəmmət alması, ən pis halda isə tutduğu vəzifəsindən azad edilməsindən o yana keçmirdi. Bundan başqa, kəndlilər çarın vassalları hesab edilən Borçalı ağalarının xeyrinə əvvəlki dövrlərdə olduğu kimi, yenə də məhsulun onda birini nəzərdə tutan vergi ödəyir və müxtəlif mükəlləfiyyətləri yerinə yetirirdilər. Eyni zamanda, kəndlilərin bəyə bayram günlərində və yaxud toy mərasimi münasibətilə hədiyyə verməsi kimi arxaik adətlər də qalmaqda davam edirdi.[29]

Rusiya imperiyasının azərbaycanlıların yaşadıqları torpaqlarda, o cümlədən Borçalı ərazisində tətbiq etdiyi idarəetmə sistemi hərbi-feodal rejiminin bariz nümunəsi idi. XIX əsrin 40-cı illərinə qədər bu sistem demək olar ki, dəyişilmədən qalmışdı. Rusların "tatar distansiyaları" adlandırdıqları ərazilərin idarəetmə sistemi öz qeyri-adi sadəliyi, baş pristav vəzifəsindən başqa heç bir dövlət orqanının olmaması ilə seçilirdi. Bu hal Cənubi Qafqazda təftişlər həyata keçirmiş senatorlar

---

[25] Məmmədli Ş. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin ağır nəticəsi. Bakı: Azərnəşr, 1991, s. 5.

[26] Эрицов А.Д. Экономический быт государственных крестьян Борчалинского уезда, с. 369.

[27] Утверждение русского владычества на Кавказе. [Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества вел. кн. Михаила Николаевича Ист. очерк / Сост. В.Н. Иваненко]. Т. 12. Тифлис: 1901, с. 28.

[28] Утверждение русского владычества на Кавказе, с. 122.

[29] Эсадзе С. Историческая записка об управлении Кавказом. Т. 1. Тифлис: Типография Гуттенберга, 1907, 616 с. s. 519

Kutaysov və Meçnikovu da heyrətə gətirmişdi. Senatorlar yazırdı: "Baş pristav distansiyada əsas şəxsdir. O, istintaq aparır, məhkəmə qurur və cəza verir. Ən mühüm işlər istisna olmaqla bütün işləri özü şəxsən həll edir. O öz şəxsində həm də bütün polis hakimiyyətini ehtiva edir. O, dövlət vergi və mükəlləfiyyətlərini bölüşdürür, kənd ağsaqqallarını təyin və azad edir, bir sözlə, distansiyanı öz şəxsi mülkü kimi idarə edir.[30] Senatorlar hətta baş pristavların ağalara rütbələr və xəzinəyə məxsus olan kəndləri də idarə etmək üçün verdiklərini müşahidə etmişdilər. Bundan başqa, hesabatda ağaların kəndlilərə qarşı yol verdikləri özbaşınalıq hallarından da danışılaraq, mövcud idarəetmə sisteminin bu vəziyyətə gətirib çıxardığı vurğulanırdı.

XIX əsrin 40-cı illərində çarizmin Cənubi Qafqazda həyata keçirdiyi inzibati və məhkəmə islahatları diyarda, o cümlədən Borçalıda idarəetmə sisteminin nisbətən təkmilləşməsi ilə nəticələndi. 1841-ci ildə Cənubi Qafqazda təşkil edilmiş iki inzibati vahid – Gürcü-İmeret quberniyası və Xəzər vilayəti əvəzinə 1846-cı ildə Qafqaz canişini Voronsovun diyarda ixtisar olunmuş idarəetmənin tətbiq edilməsi və yeni qəzaların yaradılması haqqında təklifinə əsasən inzibati vahid-lər yaradıldı. Qeyd etmək lazımdır ki, bu məsələnin Qafqaz Komitəsində müzakirəsi zamanı qərara alındı ki, vilayətlər quberniya, onların dairələri qəzalar adlandırılsın və inzibati zamanı qərara alındı ki, vilayətlər quberniya, onların dairələri qəzalar adlandırılsın və inzibati vahidlərin adlandırılmasında orada yaşayan əhalinin etnik mənsubiyyəti əks olunmasın.[31] İmperator I Nikolayın 1846-cı il dekabrın 14-də təsdiq etdiyi "Cənubi Qafqaz diyarının bölünməsi haqqında Qayadalar"a əsasən Cənubi Qafqazda yaradılmış Tiflis, Şamaxı, Kutais və Dərbənd (daha sonralar İrəvan və Yelizavetpol quberniyaları da təşkil edildi) quberniyalarında idarəetmə sahəsində bir sıra dəyişikliklər həyata keçirildi. Quberniyaların idarəsi mülki hissə də daxil olmaqla, hərbi qubernatorlara həvalə edildi. Qubernatorlar hərbi idarəetmə baxımından Hərbi Nazirliyin nəzdində olub Əlahiddə Qafqaz Korpusunun baş komandanına, mülki idarəetmə baxımından isə Qafqaz canişininə və mülki idarənin rəisinə tabe idilər. Qubernatorların üzərinə onlara etibar edilmiş quberniyalarda "sayıq şəkildə təhlükəsizlik və əmin amanlığın qayğısına qalmaq" vəzifəsi qoyulmuş, qayda-qanunun bərpa edilməsi məqsədilə qoşundan istifadə etmək səlahiyyəti verilmişdi.

Beləliklə, həyata keçirilən islahatlardan sonra Cənubi Qafqaz diyarının mülki idarəetməsi bu şəkildə oldu:

1) Baş idarə – mülki idarə rəisi;

2) 10 aprel 1840-cı il "Təsisatları" əsasında fəaliyyət göstərən Quberniya idarəsi (lakin buraya xəzinə palatası və dövlət əmlakı palatası daxil deyildi);

3) Xüsusi qaydalarla həyata keçirilən dairə idarəsi;

4) Yerli – qəza, sahə, kənd idarələri.[32]

Borçalı qəzasının inzibati mərkəzi Böyük Şulaver kəndi hesab edilirdi. Qəza rəisinin, onun köməkçisinin iqamətgahı, həmçinin bütün qəza idarəsi, hakim statusunda olan xüsusi Şulaver sahəsi müdiri və onun köməkçisi bu kənddə yerləşirdi.

Borçalı qəzası Borçalı, Loru, Trialet və Yekaterinnenfeld nahiyələrindən ibarət idi. Borçalı nahiyəsi indiki Marneuli, Yekaterinnenfeld nahiyəsi indiki Bolnisi və Tetriskaro (Ağbulaq), Trialet nahiyəsi indiki Dmanisi (Başkeçid) və Zalqa, Loru nahiyəsi isə indiki Ermənistan Respublikasının Tumanyan (Allahverdi), Noyemberyan (Barana), Stepanavan (Calaloğlu), Taşir rayonlarının ərazisini əhatə edirdi.[33]

Qəzalar, o cümlədən Borçalı qəzası da polis sahələrinə bölünürdü.[34] Tiflis quberniyasının digər əhalisi kimi Borçalı sakinləri də müəyyən rəsmi təsisatlar tərəfindən idarə edilirdilər. Bu rəsmi

---

[30] Утверждение русского владычества на Кавказе, с. 202-203.

[31] Блиева З.М. Кавказское наместничество в середине XIX века: становление новой административной стратегии // Известия вузов. Северо-кавказский регион общественные науки. Приложение. Махачкала: 2003. № 9, с. 42.

[32] Блиева З.М. Кавказское наместничество в середине XIX века: становление новой административной стратегии, с. 43

[33] Məmmədli Ş. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin ağır nəticəsi, s. 5.

orqanları Qafqaz Canişinin Baş İdarəsi, tərkibinə quberniya, qəza, şəhər, volost və kənd idarələrinin daxil olduğu yerli idarəetmə orqanları və məhkəmə təsisatı olmaqla qruplaşdırmaq olar. Bütün bu idarəetmə orqanlarına Qafqaz canişini nəzarət edirdi.

**Nəticə**

Beləliklə, Borçalı və digər Azərbaycan torpaqlarında çar müstəmləkə rejiminin qurulması ilə azərbaycanlıların ictimai-təsərrüfat xüsusiyyətlərinə ağır zərbə vuruldu. Çar hakim dairələri tərəfindən irəli sürülmüş və həyata keçirilmiş hər hansı bir "Qaydalar", layihələr yerli etnik xüsusiyyətləri nəzərə almadığına görə azərbaycanlı əhalinin ənənəvi təsərrüfat ukladına və ictimai inkişafına mane olaraq onların müxtəlif təbəqələrinin haqlı etirazına səbəb oldu.

Azərbaycan torpaqlarında Rusiya hakim dairələrinin həyata keçirdiyi iqtisadi və siyasi fəaliyyətin qeyri-ardıcıllığını onun hətta 1912-1913-cü illərə qədər davam etməsi və təkmilləşdirilməsi faktları da göstərir. İşğal etdiyi ərazilərdə hərbi-polis rejimi quran çar müstəmləkəçilərinin yürütdüyü siyasət bu torpaqların köklü sakinləri olan azərbaycanlıların tədricən yaşayış üçün münasib olmayan yerlərə sıxışdırılmasına, onların münbit torpaqlarında isə gəlmə xalqların – rus, erməni və almanların məskunlaşmasına səbəb oldu.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Abbasova M. Borçalı torpaqlarının tarixi. Bakı: Mütərcim, 2016, 388 s.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f. 291, siy. 1, iş. 694.
3. Məmmədov R. Məmmədli V. Borçalı tarixi demoqrafiya güzgüsündə (tarixi-demoqrafik oçerk). Bakı: "Əbilov, Zeynalov və oğulları", 2001.
4. Məmmədli Ş. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin ağır nəticəsi. Bakı: Azərnəşr, 1991, 66 s.
5. Архипова Е.В. Азербайджано-грузинская граница: исторические факторы появления современных территориальных споров // Вестн. Волгогр. гос. ун-та. Сер. 4, Ист. 2012. № 2 (22) с. 76-83.
6. Блиева З.М. Кавказское наместничество в середине xix века: становление новой административной стратегии// Известия вузов. Северо-кавказский регион общественные науки. Приложение. Махачкала: 2003, № 9. с. 39-49.
7. Военно-статистическое обозрение Российской империи. Т. 16 (Кавказский край), ч. 5. – СПб.: Тип. Департамента Генерального Штаба, 1858, 334 с.
8. Кавказский календарь на 1885 год. Тифлис: 1884.
9. Кавказский календарь на 1917 год. Тифлис: 1916.
10. Котляр И.Ф. Половцы в Грузии и Владимир Мономах // Из истории украинско-грузинских связей. Ч. 1. Тбилиси: Мецниереба, 1968, 254 с.
11. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Ч. II. СПб.: Типография департамента внешней торговли, 1836, 401 с.
12. Утверждение русского владычества на Кавказе. [Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества вел. кн. Михаила Николаевича Ист. очерк / Сост. В.Н. Иваненко]. Т.12. Тифлис: 1901, 527 с.
13. Учреждение управления Кавказского и Закавказского края. СПб.: 1876, 67 с.
14. Энциклопедический словарь Брокгауза и Ефрона: Битбург - Босха. В 86 томах. Том IV. Санкт-Петербург. Семеновская Типолитография (И.А. Ефрона) 1891, 488 с.
15. Эрицов А.Д. Экономический быт государственных крестьян Борчалинского уезда, Тифлисской губернии // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. 7. Тифлис: Тип. А. А. Михельсона, 1887, 767 с.
16. Эсадзе С. Историческая записка об управлении Кавказом. Т. 1. Тифлис: Типография Гуттенберга, 1907, 616 с.

**FORMATION, TERRITORY AND ADMINISTRATIVE STRUCTURE OF THE BORCHALI DISTRICT**

**G.I.Ajdarzadeh**
Mingachevir State University
PhD candidate at Azerbaijan National Academy of Sciences

***Abstract:*** *The article explores the formation of the Borchali district in the 19th century, its territory, and its administrative system. It analyzes the administrative changes the Borchali region underwent following the occupation by the Russian Empire, the ethnic composition of the population, the socio-economic situation, and forms of governance. The article also evaluates territorial changes of the Borchali district in different periods and the demographic consequences of these changes. The research shows that the Borchali region was a significant historical and geographical area predominantly inhabited by Azerbaijanis in a compact settlement pattern. The article also examines the region's ethnic diversity, the structure of agriculture, and property relations. From this perspective, the research is significant not only for the field of history but also for ethnography and political geography.*
***Keywords:*** *Borchali district, Tiflis Governorate, administrative reforms, Azerbaijanis, Russian Empire, 19th century, ethno-demography, forms of governance*

**ФОРМИРОВАНИЕ, ТЕРРИТОРИЯ И АДМИНИСТРАТИВНОЕ УСТРОЙСТВО БОРЧАЛИНСКОГО УЕЗДА**

**Г.И.Аждарзаде**
Мингячевирский государственный университет
диссетант Национальной академии наук Азербайджана

***Резюме:*** *В статье исследуются формирование Борчалинского уезда в XIX веке, его территория и система административного управления. Анализируются административные изменения, с которыми столкнулся регион Борчалы после оккупации Российской империей, этнический состав населения, социально-экономическое положение и формы управления. Также рассматриваются изменения в территориальных границах уезда в разные периоды и их демографические последствия. Исследование показывает, что регион Борчалы являлся важной историко-географической областью, преимущественно компактно населённой азербайджанцами. В статье также проанализированы этническое разнообразие региона, структура сельского хозяйства и имущественные отношения. С этой точки зрения, исследование представляет интерес не только для исторической науки, но и для этнографии и политической географии.*
***Ключевые слова:*** *Борчалинский уезд, Тифлисская губерния, административные реформы, азербайджанцы, Российская империя, XIX век, этно-демография, формы управления*

**Elmi redaktor: t.f.d., dos. E.Aslanov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 11.04.2025**
**Çapa qəbul edilib: 18.04.2025**